AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYAT TƏDRİSİ
2022, № 1 (271), 82-89
https://dx.doi.org/10.48445/d9497-9336-7601-y

**M E T O D İ K A**

# Azərbaycan dili fənnində ümumiləşdirici dərslərin yeni sistemi: nəzəriyyə və təcrübi söhbətlər

***Aynur Şelemanova***
Doktorant, Bakı Slavyan Universiteti. Azərbaycan.
E-mail: aynurselemanova@gmail.com
https://orcid.org/0000-0002-8972-6064

**XÜLASƏ**
Ümumiləşdirmə fəlsəfi kateqoriya hesab edilir. O, elmi tədqiqatın metodu olduğu kimi, təlimin də metodu sayılır. Ümumiləşdirmə xüsusi halları ümumiyə daxil etmək deməkdir. Bu yolla ayrı-ayrı elmi anlayışları daha geniş məfhumda ifadə etmək mümkündür. Belə olan halda, ümumi anlayışlar təsnifatlara çevrilir. Məsələn, nitq hadisələri, cümlə və ədəbiyyat kimi. Onlar növlərə, tiplərə və s. bölünür. Məqalədə bir çox anlayışlardan bəhs edilir. Bildirilir ki, nəticə ümumiləşdirmələrdən ibarətdir. Atalar sözləri, məsəllər və deyimlərin, həmçinin əlamətin də ən geniş və ümumiləşmiş anlayış olduğu diqqətə çatdırılır. Qeyd edilir ki, nitq hissələri təlimin başlıca əlamətlərini yığcam şəkildə ifadə edən ümumiləşdirmə nümunəsidir. Şagirdləri də bu kimi bacarıqlara yiyələndirmək Azərbaycan dili fənninin ən mühüm vəzifəsidir.

**AÇAR SÖZLƏR**
ümumiləşdirici təlim, çalışmaların növləri, müstəqil işlər, təlim metodları, mövzuların ümumiləşdirilməsi

**MƏQALƏ TARİXÇƏSİ**
göndərilib: 12.01.2022
qəbul edilib:18.02.2022

**MƏQALƏNİ ÇAPA MƏSLƏHƏT BİLƏN**
Filologiya elmləri doktoru, professor İsmayıl Kazımov.

TEACHING OF AZERBAIJANI LANGUAGE AND LITERATURE
2022, NO. 1, VOL. 271, 82-89
https://dx.doi.org/10.48445/d9497-9336-7601-y

**METHODS**

# New system of generalization lessons in the Azerbaijani language: theory and practical conversations

***Aynur Shelemanova***
Doctoral student, Baku Slavic University. Azerbaijan.
E-mail: aynurselemanova@gmail.com
https://orcid.org/0000-0002-8972-6064

**ABSTRACT**
Generalization is a philosophical category. It is a method of teaching as well as a method of scientific research. Generalization is the inclusion of specific cases, factual materials in a generalization. In this way, individual scientific concepts can be expressed in a broader sense. General concepts become classifications. For example, such as speech events, sentences, literature, and so on. They are divided into types, types, etc. There are many concepts in scientific research. The result part consists of generalizations. Proverbs, parables, sayings are generalizations. The teaching process is the discovery of the secrets of science. Adjectives depend on color, taste, quality, volume, etc. reports. Synthetically expressing the main features of speech training is an example of generalization. The most important task is to teach students this skill. The article deals with this issue.

**KEYWORDS**
general training, types of work, independent work, training methods, generalization of topics

**ARTICLE HISTORY**
Received: 12.01.2022
Accepted: 18.02.2022

## Giriş / Introduction

Klassik pedaqogikada deyildiyi kimi, dərs təlimin ən geniş yayılan növ və ya formalarından biridir. Bunlara qarışıq tipli və ya kombinə edilmiş dərslər, yeni bilik verən, möhkəmləndirmə, imla, ifadə, inşa və s. dərslər aiddir. Dərslərin klassik tip və növlərindən əlavə, müasir tip və növləri də mövcuddur. Bu cür dərslər təlim metodlarının adları ilə bağlı olur. Məsələn, interaktiv, inteqrativ, frontal, kurikulum, ənənəvi, ümumiləşdirici təkrar dərslər və ya qiymətləndirmə dərsləri və s.

Təlim və təhsil haqqında nəzəriyyələr didaktika adlanır. Klassik pedaqoqlar – Y.A.Komenski, D.K.Uşinski və başqalarının yaradıcılığı indi də öyrənilir və yeri gəldikcə onların fikirlərinə istinad olunur. Azərbaycan didaktları olan akademik M.M.Mehdizadə, professorlar N.M.Kazımov, Ə.A.Ağayev və onların yetirmələrinin tədqiqatları ənənəvi təlimlə əlaqədardır.

Müasir didaktika bəzi klassik ənənələri özündə əks etdirsə də, ona fəallaşdırıcı təlim nəzəriyyəsi deyilir. Fəallaşdırıcı təlim texnologiyaları interaktiv metodların motivləşdirmə, tədqiqatçılıq, müzakirə (dialoq-diskussiya), ümumiləşdirmə və qiymətləndirmə yolu ilə xarakterizə olunur. Təlimin təfəkkür və nitq inkişafı aspektləri tarixin sınaqlarından çıxmış böyük bir sistemdir.

Təlimə münasibət hər zaman müxtəlif olmuşdur. Tədqiqatlar zamanı düşüncənin obyekt və subyektləri dəyişdikcə fərqli yanaşmalar meydana çıxmışdır. Bir neçə nümunə ilə fikrimizi ifadə etməyə çalışaq. Müasir pedaqoqlardan olan prof. M.İsmixanovun "Pedaqoji terminlərin izahlı lüğəti"ndə qeyd edildiyi kimi, dərsin təlimin əsas təşkili forması olması fikri əsrin böyük çex pedaqoqu Y.A.Komenski tərəfindən nəzəri cəhətdən əsaslandırılmışdır. Pedaqoqun "Böyük didaktika" əsərində qeyd edilir ki, dərslər struktur ünsürləri və tiplərinə görə çox fərqlidir. Belə ki, əsərdə hər bir dərs tipi özünəməxsus quruluş və mərhələsi ilə seçilir.

Qeyri-standart dərs növləri də mövcuddur. Tipindən və quruluşundan asılı olmayaraq, bütün dərslər üçün ümumi tələblər vardır [6, s.14]. Professor M.İsmixanov dərs növlərinə aid təsnifatda onlardan bəzilərini belə əsaslandırır: "Dərslərin səmərə və keyfiyyətini təmin etməyə yönələn başlıca tələblərin didaktika baxımından dərslərin ümumi təlim prinsiplərinə cavab verməsi üçün xüsusi tələblər bunlardır: əsas səmərə əldə edilməli, optimal məzmun tətbiq edilməli, əlverişli, mənəvi və psixoloji iqlim mühiti yaradılmalı, təşkilatlarla müstəqil və yaradıcı fəaliyyət üçün əlverişli şərait qurulmalıdır" [6, s.14]. Dərsin strukturu və quruluşu haqqında deyilənlərlə bağlı ümumiləşdirilmiş fikir təxminən belədir: Dərsin strukturu dedikdə, bunlar daha düşündürücü görünür. Belə ki, hər bir dərsdə əsas ünsürlərin

qarşılıqlı əlaqəsi və ardıcıllığında istifadə olunan quruluş nəzərdə tutulur. Həmin ünsürlərə yeni biliyin mənimsədilməsi, tətbiqi, möhkəmləndirilməsi, şagirdlərin yaradıcı axtarışları, yoxlama və s. daxildir. Dərsin strukturu və didaktik məqsədləri materialın məzmunundan, sinfin və şagirdlərin hazırlıq səviyyəsindən və s. asılıdır. Bütün bunlar da çoxcəhətli struktura malik dərs tiplərinin müxtəlifliyini təmin edir [6, s.15].

Dərs tiplərindən bəhs edən pedaqogika kitablarında müxtəlif cür yanaşma və şərhlər verilmişdir. Azərbaycan didaktlarından akademik M.Mehdizadə, professorlar N.Kazımov, Ə.Əfəndizadə, Y.Kərimov, Ə.Ağayev, H.Balıyev, M.İsmixanov və N.Cəfərovanın bir-birindən fərqli təsnifatları mövcuddur. Yuxarıda adları sadalanan alimlər dərs tiplərini didaktik xüsusiyyətlərə əsasən təsnif etmişlər. Onların dərs təsnifatlarına dair fikirləri demək olar ki, eynidir. Yalnız şərhlər zamanı bəzən genişlik və ya yığcamlıq hiss olunur. Pedaqoq və metodistlərin fikirlərinə istinadən qeyd edə bilərik ki, dərs tiplərinin əksəriyyətində bir komponent daha çox dominantlıq təşkil edir. Bu cür komponent dərsin əsas məqsədi ilə bilavasitə bağlıdır. Didaktik məqsəddən asılı olaraq, 5 dərs tipi fərqləndirilir:

1. yeni bilik verən dərs;
2. möhkəmləndirmə dərsi;
3. tətbiqetmə dərsi;
4. yoxlama dərsi;
5. mürəkkəb (bəzi mənbələrdə qarışıq və ya kombinə edilmiş) dərs.

Bu dərs tiplərinin quruluşunda əsas məqsədə daha çox vaxt ayrılır. Ənənəvi təlim metodologiyasında göründüyü kimi, ümumiləşdirici dərs tipinin adı yoxdur. Məgər verilən biliyin təkrarı və möhkəmləndirilməsi ilə ardıcıl olaraq ümumiləşdiricilik məqsədi həyata keçirilməli deyilmi?

Professor F.Rüstəmov bir çox məsələlərə aydınlıq gətirdiyi kimi, bu məsələ barəsində də öz fikrini bildirmiş və qeyd etmişdir ki, müasir təlim prosesi ənənəvi təlimdən fərqli şəkildə, maksimum idarə edilə bilən mürəkkəb və çoxcəhətli prosesdir. Texnologiyaların köməyi ilə həll edilən başlıca problem təlim prosesinin idarə olunmasıdır. Ənənəvi və qeyri-texnoloji təlim metodlarının nöqsanları çoxdur. Qeyri-müəyyənlik, öyrənmə əməliyyatlarının az idarə olunması, mənimsəmənin yoxlanılmasının subyektiv və epizodik xarakter daşıması buna nümunə ola bilər. Pedaqoqun fikrincə, ənənəvi yanaşmada müəllim yalnız bilik vermək məqsədini qarşıya qoyur. Texnologiyaya görə təlimin məqsədi şagirdin vəziyyətini, onun biliklərini, fikir və davranışını dəyişməkdir. Texnologiyanın vəzifəsi təlimedici

sistemin bütün elementlərini öyrənmək və təlim prosesini layihələşdirməkdir [5, s.248].

Dilçi-metodist olaraq qeyd olunanlara bizim münasibətimiz necədir? Fikrimizcə:

1. Dərs şagird üçün ağır fəaliyyət meydanı olmamalıdır.
2. Dərs şagirdlərin marağını təmin edə biləcək fəaliyyət prosesinə çevrilməli və onları başlıca məqsədə xidmət edən hazırlıq mərhələsinə doğru aparmalıdır.
3. Yeni texnoloji fəaliyyət dərs prosesini ölçmə, təyinetmə və quraşdırma cihazına döndərməməlidir. Biliyi ölçmə hissi oyatma, düşündürücü və danışdırıcı vasitələrlə həddindən artıq yüklənməməli və pedaqoqlar şagirdlərə dərs tapşırıqlarını verən zaman onların psixologiyasını nəzərə almağı unutmamalıdırlar.

Ölkəmizdə standart və qeyri-standart dərslərin tətbiqi 2008-ci ildən etibarən həyata keçirilir. Bu cür dərslər seçilən mərhələləri ideolizə edir. Pedaqoji fəaliyyətdə onlarla, bəlkə də daha çox dərs tiplərindən istifadə olunması bununla əlaqədardır. “Pedaqogika. Yeni kurs” kitabında həmin dərs tiplərinin məqsəd və vəzifələrinin həyata keçirilmə metodikası haqqında geniş məlumat verilmişdir. Ən çox yayılan qeyri-standart dərs tipləri aşağıdakılardır:

1. işgüzar oyunlar;
2. dərslər – mətbuat konfransı;
3. yarış dərsləri;
4. məsləhət dərsləri;
5. kompüter dərsləri;
6. qarşılıqlı təlim dərsləri;
7. yaradıcılıq dərsləri;
8. məqbul dərslər;
9. fantaziya dərsləri;
10. dərslər və oyunlar;
11. həqiqəti tapma dərsləri;
12. dərslər – konsertlər;
13. dialoq dərslər;
14. dərslər – rollu oyunlar;
15. dərslər – konfranslar;
16. dərslər – seminarlar;
17. dərslər – ekskursiyalar;
18. inteqral dərslər;
19. məhkəmə dərsləri [3, s.248-249].

Göründüyü kimi, bu siyahıda ümumiləşdirici dərs termini yoxdur. Ümumiyyətlə, yeni texnoloji ədəbiyyatda 36-ya qədər qeyri-standart dərs tipi göstərilir [2, s.239-240]. Fikrimizcə, istər standart, istərsə də qeyri-standart dərs tiplərinin adlarını artırmaq düzgün deyildir. Müəllifin də qeyd etdiyi kimi, burada məqsədlər də dərs tipi kimi verilmişdir. Bununla belə, ənənəvi dərs tiplərində olanların əksəriyyəti nəzərə alınmamışdır. Məsələn, ümumiləşdirici təkrar dərslər, kino dərsləri, hazırcavablar klubu dərsləri və s.

Gəldiyimiz qənaətə əsasən, göstərilən dərs tiplərinin bəzilərini təlimdə "mərhələ" adlandırmalıyıq. Bunlar verilən bilik və bacarığın təkmilləşdirilməsinə xidmət edən ümumiləşdirmə formalarıdır. İmla dərsləri vasitəsilə şagirdlərdə nəyin necə yazılması haqqında təsəvvürlər, ifadə dərsləri ilə şagirdlərdə məzmun və oxunu ifadə etmək təsəvvürü, inşa dərsləri vasitəsilə isə şagirdlərdə mövzunu dərk etmək, informasiya toplamaq və onları sistemə salmaq bacarıqları formalaşdırılır.

Dərsin mərhələlərində tətbiq olunan ümumiləşdirici dərslər ilə ümumiləşdirici təkrar dərsləri qarışdırmaq doğru olmaz. Çalışmaq lazımdır ki, ümumiləşdirmə bacarıqları elmi-fəlsəfi, elmi-məntiqi və elmi-metodik müstəvilərdə yaradılsın. Çünki şagird ümumiləşdirmə bacarığından həyatın bir çox sahələrində istifadə etməli olur. Məktəbin, təhsilin də vəzifəsi şagirdlərdə həyati bacarıqlar aşılamaqdan ibarətdir.

VI-VII siniflərdə "Azərbaycan dili" fənninin məqsəd və vəzifəsi şagirdlərdə nitq mədəniyyəti normalarına uyğun vərdişlər formalaşdırmaqdır. Nitqdə hər bir ifadə, söz və poetik fikir ümumiləşdirmə nümunəsi sayılır. Aşağıda verilən müdrik kəlamlarda ümumiləşdirici fikirlərə nəzər salaq:

Sözün mənasındadır söz deyənin qüdrəti,
Çün ətrindən bəllənər hər gülün lətafəti
[Saib Təbrizi].

Çox danışmaq, bəlkə sənə asandır,
Çox oldu, – desələr, böyük nöqsandır!
[Nizami Gəncəvi]

Vətən mənə oğul desə, nə dərdim,
Mamır olub qayasında bitərdim
[Məmməd Araz].

Gözlərimə sürtəcəyəm kölgən düşən torpağı,
Azərbaycan bayrağı! Azərbaycan bayrağı!
[Ramiz Qusarçaylı]

Gücsüz tanrıdansa,
Güclü qəhrəman,
Hörmətə, izzətə,
Layiq hər zaman
[Hüseyn Cavid].

Azadlığı istəmirəm zərrə-zərrə, qram-qram,
Qolumdakı zəncirləri qıram gərək, qıram, qıram!
[Xəlil Rza Ulutürk]

Söz var ki, kəsdirər başı,
Söz var ki, kəsər savaşı
[Şah İsmayıl Xətai].

Verilən poetik nümunələrin hər biri ümumiləşdirici məzmun kəsb edir: Söz deyənin qüdrətli olması necədirsə, gülün lətafəti də elədir, çox danışmağı məharət hesab etmə, çox oldu desələr, böyük nöqsandır, Vətən səni oğul deyə qəbul edərsə, qayasında mamır olmaq şərafətdir, bayrağımız bizim varlığımızdır, gücsüz tanrılara səcdə etmə, güclü, qeyrətli oğullar səcdəyə layiqdirlər, qolumdakı zənciri qırmadan azad olmaq mümkün deyil, elə söz de ki, savaş yaratmasın, savaşı kəssin.

Beləliklə, aydın olur ki, ümumiləşdirici təlimdə ümumiləşdirmələr aparmaq üçün Azərbaycan dili dərsliklərinin imkanları çox genişdir. Onlar linqvistik olduğu kimi, həm də ekstra linqvistik xarakterə sahib olur. Yuxarıda verilən poetik nümunələr bunlara misaldır.

## Nəticə / Conclusion

Azərbaycan dili təlimində fikri ümumiləşdirmə bacarıqlarının imkanları, onun forma və yolları geniş olduğu kimi, metodları, priyom və üsulları da zəngin və rəngarəngdir. İnteraktiv metod və ya təlim texnologiyalarını sadalamış olsaq, qarşımızda xeyli sayda metodların cəmini görə bilərik. Bu isə yeni təlimin uğurları deməkdir. Ümumiləşdirici təkrarın motivator funksiyası bizə onu deməyə əsas verir ki, ənənəvi təlimə aid dərs tipləri çox ola bilər. Lakin o, təlim prosesindən ibarət olmalı və ümumiləşdirici anlayışlar formalaşdırmalıdır. Ümumiləşdirici təkrar mənalı bir söz, ifadə, atalar sözləri, məsəllər, hikmətli sözlər, ritorik suallar və nəhayət, nəticə ilə yekunlaşmalıdır. Belə ki, hər hansı əhvalatdan əldə edilən nəticə ümumiləşmədir. O da öz növbəsində fəlsəfi metod və ya ayrıca bir kateqoriya hesab olunur. Metodikamızda bunlar nəzərə alınmalıdır.

**İstifadə edilmiş ədəbiyyat / References**

1. İsmayılov R., Cəfərova D., Məmmədova S. (2016). Azərbaycan dili (VI sinif üçün dərslik). Bakı, Altun Kitab. 192 s.
2. İsmayılov R., Rüstəmova A., Allahverdi H., Məmmədova S. (2014). Azərbaycan dili (VII sinif üçün dərslik). 175 s.
3. Kurikulumların hazırlanması və tətbiqi məsələləri. (2008). Bakı, Kövsər nəşriyyatı. 224 s.
4. Qurbanov V.T. (2021). Oxu və nitq inkişafı təlimi. Bakı, Müəllim nəşriyyatı. 128 s.
5. Paşayev Ə.X., Rüstəmov F.A. (2002). Pedaqogika. Yeni kurs. (Pedaqoji universitetlərin tələbələri üçün dərs vəsaiti). Bakı, Çaşıoğlu. 512 s.
6. Pedaqoji terminlərin izahlı lüğəti (prof. M.A.İsmixanovun redaktorluğu ilə). (2018). Bakı, ADPU nəşriyyatı. 156 s.
7. Ümumi təhsilin fənn standartları (I-XI siniflər). (2012). Bakı, Mütərcim. 402 s.